


# V Milli Kitab Sərgisində "Repressiya qurbanı olmuş Azərbaycan poeziyası" mövzusunda tədbir keçirilib

İyunun 2-də İşərişəhərdə keçirilən V Milli Kitab Sərgisində "Repressiya qurbanı olmuş Azərbaycan poeziyası" mövzuzunda tədbir keçirilib. Tədbirdə filologiya üzrə fəlsəfə doktoru, "Ədəbiyyat qəzeti"nin baş redaktoru Azər Turan və Əhməd Cavadın nəvəsi Anar Axundzadə qonaq qismində iştirak ediblər.

Repressiya tarixi, həmin dövrün fəci və dramatik mənzərəsinə geniş nəzər salan Azər Turan Əhməd Cavadın taleyi üzərində ayrıca dayanıb. Azər Turan "1937-ci il iyunun 3-də, indi bu tədbirin keçirildiyi İçərişəhərdəki evində həbs olunan Əhməd Cavadın taleyi ümumən bütün repressiya qurbanlarının ümumiləşmiş obrazını simvolizə edir", - deyərək bu istiqlal şairinin şeirlərinə, vətən, hürr duyğulu seçmə mətnlərinə münasibət bildirib. Əli bəy Hüseynzadə ilə Əhməd Cavadın münasibətləri, onun himnimizin müəllifi kimi daşıdığı önəmli status, poeziya tariximizdə özünəməxsus cizgilərlə xarakterizə olunan Cavad obrazı haqqında ətraflı bəhs edən A.Turan bu böyük şairin cümhuriyyət dövrünün layiqli ismi olduğunu vurğulayıb.

Şairin nəvəsi Anar Axundzadə də çıxışında Azərbaycanın görkəmli şairi, ölkəmizin müstəqilliyi uğrunda mübarizə aparan, 1937-ci ildə repressiyanın qurbanı olmuş Əhməd Cavadın əzablı ömür yoluna nəzər salıb. Anar Axundzadə babasının irsinə göstərilən diqqətə görə təşəkkürünü bildirib, belə mühüm bir sərgidə Əhməd Cavadın da yaradıcılığına xüsusi həssaslıq göstərdiklərinə görə tədbir təşkilatçılarına minnətdarlığını ifadə edib.



Ədəbiyyat qəzeti.- 2023- cü il.- 3 iyun.- S. 24.